# HEYDƏR ƏLİYEV VƏ NAXÇIVAN

Əvvəli 1-ci səhifədə

gün məlum olduğu kimi AXC Naxçıvan vilayət və Ordubad rayon şöbələrinin qanunsuz silahlı dəstələri Naxçıvan MR Daxili İşlər Nazirliyini və Dövlət Teleradio Komitəsini zəbt edərək dövlət çevrilişinə cəhd göstərdilər. Lakin naxçıvanlılar hətta o zamankı "dövlət yaranmış real təhlükə 1993-cü ilin iyununda görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən Azərbaycana rəhbərliyə qayıtmasına zəmin yaratmış oldu. Çünki əzilən, məhv olan onun xalqı idi, tapdalanan, parçalanan onun Vətəni idi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun sözləri ilə desək "Heydər Əliyevin təhsilin, o cümlədən Naxçıvan Dövlət Universitetinin inkişafındakı misilsiz xidmətləri qarşısında özünün mənəvi borcunu ifadə etmişdi.

Naxçıvan Dövlət Universiteti nəzdində 1997-ci ildən müntəzəm olaraq fəaliyyət göstərən "Heydər Əliyev Universiteti"nin indiyədək keçirilmiş 60-a yaxın məşğələsi Əliyevin dövlət başçısı kimi fəaliyyətinin hər bir ayı və günü onun daxili və xarici siyasətinə yeni-yeni uğurlar gətirir, Azərbaycanın müasir tarixinin səhifələrinə qızıl hərflərlə yazılırdı. Məhz bu uğurlar blokada şəraitində yaşayan naxçıvanlılarda gələcəyə böyük ümidlər yaratmış, onları müstəqilliyimizin daha möhkəm olması üçün



rəhbərləri"nin müdafiə etdikləri cinayətkarların əl-qol açmasına imkan vermədi, onları zəbt etdikləri binaları tərk etməyə məcbur etdilər.

Bu dövrdə siyasət səhnəsini naşılıq süsləmiş ölkədə meydana yeni bir siyasi qüvvə gəlməkdə idi. Respublikadakı siyasi hərc-mərclik və ölkənin idarə olunmazlığı Yeni Azərbaycan Partiyasının yaranması prosesini sürətləndirirdi. 1992-ci il noyabrın 5-də Heydər Əliyev partiyanın Təşkilat Komitəsinin, noyabrın 21-də isə Azərbaycanın nüfuzlu ziyalılarının iştirakı ilə Naxçıvan şəhərində keçirilən təsis konfransında yekdilliklə YAP-ın sədri seçildi.

Heydər Əliyevin güclü və siyasi fədakarlığı nəticəsində Qars müqaviləsinin şərtləri bərpa olundu, Naxçıvanın Ermənistan tərəfindən işğal olunmasının qarşısı alındı. Qədim diyarımız bu dəfəki sərt sınaqdan da uğurla çıxmağa qolunda qüvvət tapdı.

Muxtar Respublika 1993-cü ilə nisbi ictimai-siyasi sabitlik şəraitində qədəm qoydu. İlin birinci yarısında Muxtar Respublika qonşu Türkiyə və İran dövlətləri ilə əlaqələrin inkişafının yeni mərhələsinə çıxdı, fevral-mart aylarında həmin dövlətlərin Naxçıvanda konsulluqları açıldı. Bakıdakı bir sıra xarici ölkə səfirliklərinin nümayəndələri Naxçıvana gələrək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev ilə müvafiq danışıqlar apardılar.

Tarixi zərurət–birbaşa xalqın tələbi, respublikada yaranmış böhranlı şərait, ölkənin o zamankı rəhbərlərinin siyasi savadsızlığı və səriştəsizliyi üzündən yaranmış hakimiyyətsizlik, torpaqlarımızın böyük bir hissəsinin işğal olunması, ölkəmizin müstəqilliyi üçün Naxçıvandan Bakıya, böyük siyasətə qayıdışı şərəfli xilaskar missiyasına–Azərbaycanı Azərbaycana qaytarmaq məramına xidmət edirdi".

Qüdrətli siyasətçi Heydər Əliyev öz siyasi qüvvə və bacarığını Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə, dövlətimizin beynəlxalq aləmin sivilizasiyalı, çağdaş və inkişaf etmiş dövlətləri sırasına çıxmasına, respublikamızın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının çiçəklənməsinə sərf edirdi. Onun son illərdəki fəaliyyətində Naxçıvan Muxtar Respublikasına qayğı özünü həyati şəkildə hiss etdirirdi. Heydər Əliyevin son illərdə Naxçıvan səfərləri təkcə doğulduğu torpağı ziyarət etmək deyil, burada gedən yeni quruculuq işlərini öz gözləri ilə görmək, dəyərli tövsiyələr və məsləhətlər verməklə bu tərəqqiyə kömək etmək məramından doğurdu. Son illərdə Azərbaycan MEA-nın Naxçıvan bölməsinin yaradılması, Gəmiqayada aparılan yeni arxeoloji tədqiqatlar, Vayxır su anbarının tikintisinin davam etdirilməsi, yeni Beynəlxalq Hava Limanının tikintisi, yeni məktəb binaları, çəkilən yollar, körpülər məhz Heydər Əliyev qayğısının nəticəsi idi. İnşası 1999-cu ildə başa çatdırılıb tələbələrin istifadəsinə verilmiş 1600 yerlik yeni tədris korpusu ümummili liderimiz Möhtərəm Heydər Əliyevin Naxçıvan Dövlət Universitetinə böyük töhfəsi hesab edilə bilər.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Naxçıvan Dövlət Universitetinin fəxri doktoru idi. Elmi şura özünün 1999-cu il tarixli qərarı ilə ölkə prezidentinə fəxri doktorluq elmi dərəcəsi verməklə onun bütövlükdə milli ali ölkə prezidentinin çətin və mənalı həyatının, keçdiyi şərəfli mübarizə yolunun, Azərbaycanın son 35 ildəki inkişaf mərhələlərinin, eyni zamanda hazırkı müstəqillik dövrünün dərindən öyrənilməsinə şərait yaradır.

Böyük şəxsiyyət və müdrik dövlət xadimi Heydər Əliyevin keçdiyi zəngin həyat yoluna nəzər saldıqda, xalq üçün, millət üçün etdiklərini bir-bir göz önünə gətirdikdə bütün bunların bir insan ömrünə sığacaq zaman kəsiyində baş verdiyinə heç cür inanmaq olmur. Çoxları bunu rəhbərin fenomenal iş qabiliyyəti, enerjisi ilə, həddən artıq məsuliyyətli və tələbkar olması ilə izah edir. Bu, doğrudan da belədir. Lakin məkan və zaman çərçivəsinə sığmayan o nəhənglikdə işləri görmək üçün məncə sadalanan keyfiyyətlər bəs etmir. Çünki, o deyilən keyfiyyətlər mənsub olduğu xalqa, millətə, Vətənə, doğulduğu torpağa hədsiz bir məhəbbət və sevgi ilə döyünən qəlbdən qida alırdı. Heydər Əliyevin Azərbaycana olan məhəbbəti bu ölkənin özü boyda idi. Azərbaycanın böyüklüyünü görmək istəyənlər qoy ona Heydər Əliyevin gözü ilə baxsınlar.

Hər bir xalqın tarixində Heydər Əliyev kimi şəxsiyyətlər yüz ildən bir doğulur. Onlar xalqın yaddaşında və ölkənin tarixində silinməz izlər qoyurlar. Məlum olduğu kimi 2003-cü il yanvar ayının 7-də keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında həmin ilin Muxtar Respublikamızda Heydər Əliyev ili elan olunması haqqında qərar qəbul edildi. Bu tarixi və yüksək mənəvi əhəmiyyət daşıyan qərar çox dərin məzmuna malik məna daşıyırdı. Hamımıza məlumdur ki, Möhtərəm Heydər əllərindən gələni əsirgəməməyə istiqamətləndirmişdir.

Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncam hamının sevincinə səbəb olmuşdur. Sərəncamda deyildiyi kimi həyata keçirilmiş tədbirlərin təhlili göstərir ki, bu olduqca mühüm və səmərəli işin davam etdirilməsinə ehtiyac vardır. Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan, tez-tez bədnam qonşuların ərazi iddialarının obyektinə çevrilən Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə, çoxəsrlik dövlətçilik ənənələrinə malik olan bu diyarının tam dolğun, həmçinin obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir.

Bu gün Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi ümummilli liderimiz Heydər Əliyev siyasətinin təntənəsidir. Lakin böyük təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Muxtar Respublikamızın 80 illik yubileyini Heydər Əliyevsiz keçiririk. Bu gün O, cismən həyatda olmasa da, hamımızın qəlbindədir və bayramı da bizimlə qeyd edir.

**Məmməd RZAYEV,**
*NDU-nun tərbiyə işləri üzrə prorektoru, fəlsəfə elmləri namizədi*

## Xəbərlər

Dünən Muxtar Respublika Hərbi Komissarlığında fəaliyyət göstərən "Heydər Əliyev lektoriyası"nın növbəti məşğələsi keçirilmişdir. Rayon Hərbi Komissarlıqlarının nümayəndələrinin və istefada olan hərbi qulluqçuların da qatıldığı məşğələ ümummilli liderimizin anadan olmasının 81-ci ildönümünə həsr olunmuşdu.

## Bu zəngin irs daim öyrəniləcək

Məşğələdə dahi rəhbərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunduqdan sonra Muxtar Respublika hərbi komissarı, polkovnik Abbasqulu Məmmədov giriş sözü ilə çıxış edərək ümummilli liderimizin Vətən, xalq qarşısındakı misilsiz xidmətlərindən danışdı. Dahi rəhbərimizin mənalı həyatının hər birimiz üçün əbədi örnək, zəngin irsinin daim öyrənilməsi ideya-siyasi məktəb olduğunu bildirdi.

Sonra Muxtar Respublika "Bilik" Maarifçilik Cəmiyyətinin sədri Ziyəddin İsmayılovun "Heydər Əliyev və hərbi təhsil" mövzusunda məruzəsi dinlənildi. Məruzəçi Azərbaycan Silahlı Qüvvələrinin yaradıcısı, qurucusu olan Heydər Əliyevin milli hərbçi kadrların hazırlanmasında əvəzsiz xidmətlərindən danışdı. Milli Ordumuzun qüdrətlənməsi, onun hərbi potensialının güclənməsində hələ 1972-ci ildə böyük çətinliklə yaratdığı C.Naxçıvanski adına Hərbi Litseyin mühüm rol oynadığını vurğuladı. Bu litseyin Naxçıvanda da yaradılmasının tarixən hərbi peşəyə maraq göstərən naxçıvanlılara əvəzsiz töhfə olduğunu bildirdi.

Tədbirin sonunda dinləyiciləri maraqlandıran suallara ətraflı cavab verildi.

**Allahverdi ƏSGƏROV**

## Peşə məktəbində tədbirlər keçirilir

Ordubad rayonundakı peşə məktəbində ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 81 illiyi ilə əlaqədar olaraq bir sıra tədbirlər həyata keçirilir. Məktəbdə Heydər Əliyev otağı yaradılmış, xüsusi guşə təşkil olunmuşdur. Bundan əlavə dahi rəhbərin doğum gününə həsr olunmuş müxtəlif idman yarışları, şer müsabiqəsi keçirilmiş, rəsm sərgisi açılmışdır. Bu günlərdə "Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin yaradıcısıdır" mövzusunda keçirilən tədbiri giriş sözü ilə məktəbin direktoru Əmir Məhərrəmov açaraq dövlətçiliyimiz tarixində Heydər Əliyevin titanik fəaliyyətindən, məktəbin müəllimi Abbas Tağıyev ümummilli liderimizin Naxçıvanda yaşayıb işlədiyi illərdə həyata keçirdiyi taleyüklü məsələlərdən geniş danışmış, qədim Ordubadı Azərbaycanın incisi adlandıran böyük şəxsiyyətin bu bölgəyə göstərdiyi qayğıdan söhbət açmışlar.

Şagirdlərdən Afaq Ağayeva, Şəhla Məmmədova, Çiçək Hüseynova ümummilli liderimiz haqqında yazılmış şerlər söyləmişlər.

**Elxan MƏMMƏDOV**